

# Qanunsuz sahibkarlıq cinayətinin ictimai təhlükəliliyi

**Elmir ŞİRİNOV**
*Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Məhkəmə Ekspertiza Mərkəzinin Cinayət hüququ, kriminologiya və cəza – icra hüququ ixtisasının dissertantı*

***Qanunsuz sahibkarlıq dövlətin iqtisadi fəaliyyət sahəsində yaranmış ictimai münasibətlərinə güclü zərbə endirmə potensialına malik olan, istənilən ölkədə dövlət hakimiyyətinin nüfuzuna böyük miqyasda zərər yetirən ictimai təhlükəli əməllərdən biridir. Qanunsuz sahibkarlıq iqtisadi cəhətdən öz ifadəsini, əsas etibarı ilə, gizli iqtisadiyyatın bərqərar olunmasında, keyfiyyət tələblərinə cavab verə bilməyən maddi nemətlərin yaradılmasında, çirkli pulların qanunsuz sahibkarlıq obyektlərində yuyulmasında, vətəndaşların həyat və sağlamlıqlarına, habelə dövlətin və təşkilatların iqtisadi maraqlarına maddi ziyan vurulmasında tapır.***

Bu gün istənilən hüquqi dövlətin başlıca məqsədlərindən birinin vətəndaşların azad sahibkarlıq hüququnu qorumaq və açıq bazarın qanuni iştirakçılarının iqtisadi maraqlarının reallaşdırmaq üçün əlverişli şərait yaratmaqdan ibarət olmasına baxmayaraq, bazarın dövlət tənzimi sistemindəki boşluqların mövcud olması qanunsuz sahibkarlıq fəaliyyətinin həyata keçirildiyi sahələrində istehsal edilən məhsullarının maneəsiz olaraq açıq bazara çıxarılmasına və həmin malların mübadiləsinə yol açır. Bu cür arzuolunmaz hal da, nəticə etibarı ilə, qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslərin dövlət qeydiyyatı və müvafiq lisenziyalaşma şərtlərinə əməl edən, özünün dövlət qarşısındakı maliyyə öhdəliklərini yerinə yetirən və bazarda qanuni satıcı qismində çıxış edən kommersiya qurumlarının və fərdi sahibkar kontingentinin qanuni fəaliyyətini məhdudlaşdırmasına şərait yaradır.

Qanunsuz sahibkarlıq haqqında Cinayət Məcəlləsinin 192-ci maddəsində bu cinayətin tərkib əlamətlərinin sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki və hüquqi şəxsin dövlət qeydiyyatına alınmaması, xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılığın (lisenziyanın) alınmaması, lisenziyalaşdırmanın şərtlərinin pozulması ilə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma vətəndaşlara, təşkilatlara və dövlətə xeyli miqdarda ziyan vurulması və xeyli miqdarda gəlir əldə edilməsindən ibarət olduğu göstərilmişdir. Maddədə eyni əməllərin "külli miqdarda" gəlir əldə etməklə və ya "mütəşəkkil dəstə" tərəfin-



PDF processed with CutePDF evaluation edition www.CutePDF.com

dən törədilməsi ağırlaşdırıcı tərkib əlaməti kimi nəzərdə tutulmuşdur.

Bu gün istər Azərbaycanda, istərsə də dünyada qanunsuz sahibkarlıq fəaliyyətinə görə cinayət məsuliyyətinin müəyyən edilməsi və reallaşdırılması problemi, sözü gedən hüquqazidd əməllə cinayət hüququ və kriminoloji mübarizənin həyata keçirilməsi məsələləri elmi-tədqiqat predmetinə çevrilməsinə baxmayaraq qanunsuz sahibkarlıq fəaliyyətinin məsuliyyətinin əsas anlayışı, hüquqi qiymətləndirilməsi, bu cinayətin tövsifi, onun törədilməsinə görə cəza təyinetmə, habelə bu cinayətin qanunsuz sahibkarlıq inzibati xətasından fərqləndirilməsi kimi məsələlər müasir cinayət hüququnda öz həllini tapmamışdır. Bildiyimiz kimi, bu gün Azərbaycan Respublikasının qüvvədə olan İnzibati Xətalar Məcəlləsinə və Cinayət Məcəlləsinə əsasən hər hansı bir fiziki və ya hüquqi şəxs tərəfindən qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində 1000 manatdan aşağı gəlir əldə edildikdə həmin davranış inzibati hüquq pozuntusu hesab edilir və həmin şəxs barəsində Azərbaycan Respublikası İXM-nin 199-cu maddəsində nəzərdə tutulan hüquq pozuntusunu törətdiyinə görə inzibati tənbeh tədbirləri görülür. Qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş gəlir 1000 manatdan çox olduqda isə həmin davranış ictimai təhlükəli əməl hesab edilir. Həmin şəxs barəsində Azərbaycan Respublikası CM-nin 192-ci maddəsində nəzərdə tutulan qanunazidd əməli törətdiyinə görə cinayət-hüquqi xarakterli tədbir görülür. Bununla yanaşı, bu gün Azərbaycan Respublikası CM-nin 192-ci maddəsində qanunsuz sahibkarlıq cinayətinin xeyli və külli miqdarda gəlir əldə etməklə törədilməsini göstərən yuxarıda qeyd etdiyimiz məbləğin hansı meyar əsasında müəyyən edildiyi, ölkə üzrə əhalinin hansı göstəricilərinin təzahürü olduğu, göstərilən məbləğin haradan meydana gəldiyi heç bir elmi araşdırmaya əsaslanmamışdır.

Bu gün dünyada kölgə iqtisadiyyatı, qeydiyyatsız biznes kimi adlandırılan qanunsuz sahibkarlıq cinayəti yüksək latentliyə malik olan kriminogen davranışlardan biridir. Dünya praktikasında, müəyyən zaman və məkan intervalında törədilən cinayətlərin məcmusunun dövlət statistikasında tam şəkildə əks olunmadığı öz təsdiqini tapmışdır. Qanunsuz sahibkarlıq cinayəti də belə yüksək latentliyə malik olan ictimai təhlükəli əməllərdən biridir. Yəni, dövlət statistikasında müvafiq il üzrə həmin cinayətkarlığı göstərən rəqəmlər, qanunsuz sahibkarlıq faktının tam şəkildə əks etdirmir. Bu da öz növbəsində, qanunsuz sahibkarlıq cinayətlərində latentliyin səbəblərinin kompleks araşdırılmasının, cinayət faktlarının aşkara çıxarılmasının və onunla mübarizə aparılmasının kriminoloji tədqiqinin zəruriliyini meydana çıxardır.

Qanunsuz sahibkarlıq cinayətinin obyekti sahibkarlıq fəaliyyəti sahəsində yaranan ictimai münasibətlər, habelə dövlətin, ayrı-ayrı təşkilatların və vətəndaşların qanunla qorunan mənafeləridir. Vətəndaşlarla dövlət arasında

yaranmış qanunsuz sahibkarlıqla bağlı ictimai münasibətlərin Cinayət Məcəlləsinin normaları əsasında tənzimlənməsi bu fəaliyyətin cinayət olmasını təsdiq edir. Qanunsuz sahibkarlıq cinayətinin ictimai təhlükəliliyi həmin cinayətin obyekti ilə ölçülür. Başqa sözlə desək, cinayətin obyekti qanunsuz sahibkarlıq fəaliyyətinin ictimai təhlükəlilik dərəcəsini əks etdirən göstəricisidir. Qanunsuz sahibkarlıq cinayətinin obyektinin müəyyən edilməsi üçün cinayət-hüquqi ədəbiyyatlarında qəbul edilmiş cinayətin obyekti ilə bağlı aşağıdakı normalar əsas götürülür:

- cinayətin obyekti – yalnız o şey ola bilər ki, cinayət nəticəsində ona zərər vurulsun.

- cinayətin obyekti – cinayət hüquqi normaları ilə kriminal qəsdlərdən qorunan ictimai münasibətlərdir.

Göstərilənləri əsas tutaraq tədqiq etdiyimiz qanunsuz sahibkarlıq adlanan cinayətin obyektinin cinayət hüququ normaları ilə cinayətkar qəsdlərdən qorunan ictimai münasibətlərdən ibarət olduğunu təsdiq etmək mümkündür. Göstərilən münasibətlər sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi zamanı vergi orqanlarında qeydiyyatın zəruriliyi və müvafiq fəaliyyət sahələri üzrə xüsusi razılıq tələb edilməsi nəticəsində meydana gəlir ki, bu münasibətlərdə o zaman cinayət hüquqi normaları ilə qorunur ki, onların pozulması nəticəsində vətəndaşlara, təşkilatlara və dövlətə xeyli və külli miqdarda zərər dəymiş olsun.

Qanunsuz sahibkarlığın cinayətinin əsas ünsürü ictimai təhlükəli hərəkət və ya hərəkətsizlikdən ibarətdir, yəni qanunla qorunan maraqlara edilən ictimai təhlükəli və hüquqazidd qəsd prosesidir. Cinayətin obyektiv cəhəti bu cinayətkar qəsdin tərkibini müəyyən edən aşağıdakı alternativ əməllərdən ibarətdir:

- vergi qanunvericiliyi ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma;

- lisenziyalaşdırma şərtlərinin pozulması ilə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olma.

Cinayət təqibini həyata keçirən orqan Azərbaycan Respublikasının CM-nin 192-ci maddəsinin istintaqını apararkən ilk olaraq hüquqazidd hesab etdiyi əməlin hansı subyektə, nə dərəcədə zərər vurduğunu araşdırmalıdır. Azərbaycan Respublikasının CM-nin 192-ci maddəsinin dispozisiyasına əsasən qanunsuz sahibkarlıq cinayəti nəticəsində 3 subyektə – vətəndaşa, təşkilata və dövlətə zərər dəyə bilər. Qanunsuz sahibkarlıq cinayətinin təhlili zamanı nəzərə alınmalıdır ki, normal sahibkarlıq fəaliyyətində yuxarıda adları çəkilən hər subyektin öz tələbatına uyğun olaraq marağı vardır.

*Birincisi,* sahibkarlıq fəaliyyətinin həyata keçirilməsində bilavasitə iştirak etməyən, lakin bu fəaliyyət nəticəsində istehsal edilən məhsulları istehlak edən vətəndaşlar onların tələbatlarına uyğun nemətlərin yaradılmasında və

bazar tərəfindən təklif olunmasında həmişə maraqlıdırlar. Bazarın vətəndaşlara təklif etdiyi keyfiyyətli malların, işlərin və ya xidmətlərin hüquqi statusa malik olmayan şəxs tərəfindən istehsalı, satılması və ya həyata keçirilməsi istehlakçıların həyat və sağlamlığına zərər vurmursa, onda bu əməlin vətəndaşların maraqlarının təmin olunması baxımından cinayətkar qəsd hesab olunması şübhə doğurur.

Lakin bu cür fəaliyyət keyfiyyətsiz malların istehsalı və satışı ilə müşayiət olunursa, habelə vətəndaşların həyatına və sağlamlığına xeyli miqdarda ziyan vurulması ilə nəticələnirsə, təqsirkar şəxsə qarşı Azərbaycan Respublikasının CM-nin 192-ci maddəsi ilə nəzərdə tutulan məsuliyyətin tam həcimdə tətbiq olunmasının əsaslılığı sübuta yetirilmiş olur. Bununla yanaşı, istintaq və ya təhqiqat zamanı qanunsuz sahibkarlıq cinayətinin özgə əmlakından və ya hüquqlarından istifadə etməklə törədilib-törədilməməsi məsələsi də araşdırmalıdır. Əgər sözü gedən cinayət özgə əmlakından və ya hüquqlarından istifadə nəticəsində törədilmişdirsə, bu zaman əmlak və hüquq sahibi olan vətəndaşlara dəymiş ziyanın miqdarı araşdırılmalıdır. Digər tərəfdən xüsusi razılıq (lisenziya) tələb olunduğu halda bu cür xüsusi razılıq almadan tibbi xidmət göstərmiş hər hansı bir fiziki şəxsin vətəndaşa vurduğu zərər də qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində vətəndaşa dəymiş zərər hesab edilməlidir.

*İkincisi,* Azərbaycan Respublikasının CM-nin 192-ci maddəsi qanunsuz sahibkarlıq nəticəsində təşkilatlara xeyli miqdarda ziyan vurulmasını cinayətkar qəsdin əlaməti kimi təsdiq edir.

Qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olma təşkilatlara iki halda ziyan vurulması ilə nəticələnə bilər. Birinci hal, istehlak bazarının idarə olunmasında şəffaflığın yoxluğu nəticəsində bazar gizli istehsal məhsulları ilə doldurula və nəticədə qanuni fəaliyyət göstərən sahibkarların bazardakı əlverişli mövqeyi itirilmiş olur. Lakin bu halda təşkilatlara vurulan zərərin miqdarının müəyyən edilməsi iqtisadçıların və hüquqşünasların birgə səyləri nəticəsində həll edilməlidir. İkinci hal, gizli iqtisadi fəaliyyət digər təşkilatların mülkiyyətində olan əmlakdan və ya həmin təşkilata məxsus hüquqlardan qanunsuz istifadə edilməklə həyata keçirildikdə, həmin təşkilatlara ziyanın vurulması ilə bağlı məsələ mülki və cinayət qanunvericiliyinin normaları nəzərə alınmaqla həll olunmalıdır.

*Üçüncüsü,* nəhayət, cinayətkar qəsdin əlamətlərindən biri dövlət qeydiyyatına alınmadan və ya xüsusi razılıq (lisenziya) tələb olunduğu halda belə razılıq (lisenziya) almadan, həmçinin lisenziyalaşdırma şərtlərinin pozulması ilə həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə məşğul olmanın dövlətə xeyli miqdarda ziyan vurulması ilə nəticələnməsidir. Qanunsuz sahibkarlıq fəaliyyətindən dövlətə vurulan ziyana aşağıdakıları aid etmək olar:

1. İlk olaraq qeyd etmək lazımdır ki, hər

hansı bir ölkəni idarə etmək, subyektlər arasında yaranan münasibətləri tənzimləmək və onların hüquqlarını qorumaq üçün dövlət real gücə malik olmalıdır. Əmtəə-pul münasibətləri şəraitində bu güc başlıca olaraq ölkə ərazisində sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərin mənfəət və gəlirlərinin vergiyə cəlb olunması yolu ilə yaranır. Nəzərə alsaq ki, vergi dövlətin fəaliyyətinin maliyyət təminatı məqsədilə vergi ödəyiciləri tərəfindən dövlət büdcəsinə ödədikləri ödənişdir, bu zaman sahibkarların dövlət qarşısındakı maliyyə öhdəliklərinin həyata keçirilməsinin əsas yolunun dövlət büdcəsinə vergiləri tam və vaxtında ödəməsindən ibarət olduğunu təsdiq etmiş olarıq.

Bununla yanaşı, Azərbaycan Respublikasının Konstitusiyasının 73-cü maddəsində göstərilir ki, hər kəs qanunla müəyyən edilmiş vergiləri və başqa dövlət ödənişlərini tam həcmdə və vaxtında ödəmək hər kəsin borcudur. Azərbaycan Respublikasının Əsas Qanununda hüquqi və fiziki şəxslər üzərinə bu cür öhdəliyin qoyulması dövlətin mövcudluğunun, onun siyasi və iqtisadi funksiyalarının həyata keçirilməsi baxımından vergilərin ödənilməsinin zəruri olduğunun göstəricisidir. Lakin nəzərə almaq lazımdır ki, vergiyə cəlb olunan sahibkar gəliri əmtəələrin, iş və xidmətlərin bazarda təqdim edilməsi nəticəsində əldə edir. Yəni, bazar vergiyə cəlb olunan gəlirin reallaşdığı mühitdir. Bazar dövriyyəsində gizli istehsalın payı nə qədər çox olarsa, vergitutma obyekti ola biləcək gəlir bir o qədər az olur və deməli qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində dövlətə dəyən ziyan bir o qədər çox olar.

2. Ölkənin idarə olunması funksiyasını yerinə yetirmək məqsədilə, dövlət iqtisadi fəaliyyətin bütün subyektləri üçün davranış qaydalarını müəyyən edir və onlardan həmin qaydalara riayət etməyi tələb edir. İnsanların tələbatlarına uyğun maddi nemətlərin istehsalına, bölgüsü və mübadiləsi prosesində oynadıqları roldan asılı olaraq hüquqi şəxslərin dövlət səviyyəsində qeydiyyata alınması, onların fəaliyyətinin əsas prinsiplərinin, eləcə də hüquq və vəzifələrinin, məsuliyyətinin müəyyən edilməsi dövlətin müstəsna hüquqlarıdır.

Qanunsuz sahibkarlıq fəaliyyəti zamanı, bu cür fəaliyyətlə məşğul olan hüquqi və fiziki şəxslərin dövlət vergi orqanlarında qeydiyyatda durmaqdan yayınması, son nəticədə dövlətin ölkəni idarə etmək hüququna zərbə endirir.

3. Qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində yaranan gəlirin bir hissəsi əmək haqqı şəklində bu fəaliyyətin həyata keçirilməsində bilavasitə iştirak etmiş işçilərə verilir. Həyata keçirilmiş fəaliyyət qanunsuz olduğundan işçilərə ödənilmiş əmək haqqında gəlir vergisi hesablanıb büdcəyə ödənilmir. Bununla yanaşı, işçilərə ödənilmiş əmək haqqına görə Dövlət Sosial Müdafiə Fonduna icbari ödənişlər həyata keçirilmir ki, bütün bunlarda dövlətə ziyan vurulması ilə nəticələnir.

*Э.Ширинов*

**Общественная опасность преступлений незаконного предпринимательства**

*Резюме*

В данной статье проанализированы последствия преступлений, связанных с незаконным предпринимательством, масштабы ущерба, наносимых от подобных фактов государственному бюджету, организациям, а также отдельным гражданам. Кроме того, выдвинуты предложения по увеличению эффективности расследования преступлений, связанных с незаконным предпринимательством.

*E.Shirinov*

**Public risk the offense of illegal business**

*Summary*

This article touches upon harmful consequences of crimes on illegal enterpreneurship, analyses scale of harms that this fact causes for state, citizens and organizations. Moreover, some proposals were put forward on the investigation of crimes on illegal enterpreneurship.

*Ədəbiyyat:*.

1. Azərbaycan Respublikasının Konstitusiyası, Bakı - 2010
2. Azərbaycan Respublikası Cinayət Məcəlləsi, Bakı -2009
3. Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi, Bakı -2010
4. Azərbaycan Respublikasının Vergi Məcəlləsi, Bakı - 2010
5. “Sahibkarlıq fəaliyyəti subyektlərinin fəaliyyətinin bir pəncərə prinsipi üzrə təşkilinin təmin edilməsi tədbirləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 25 oktyabr 2007-ci il tarixli, 2458 saylı Sərəncamı
6. Azərbaycan Respublikası Cinayət Məcəlləsinin kommentariyası, F.Y.Səməndərovun redaktəsi ilə, Bakı - 2002
7. “Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2 sentyabr 2002-ci il tarixli, 782 saylı Fərmanı
8. C.Cəfərov, “Qanunsuz sahibkarlıq fəaliyyətinə görə cinayət məsuliyyəti məsələləri”. Dissertasiya işi, Bakı – 2005.

♦